ÖLKƏ İÇİ

# “Təhsilin milli sərvətə çevrilməsi qarşımızda duran əsas vəzifələrdəndir”

## ƏLİ ƏHMƏDOV: “İLK NÖVBƏDƏ TƏHSİLİN MƏHSULDAR QÜVVƏYƏ ÇEVRİLMƏSİ, YENİ TEXNOLOGİYALARIN YARANMASI VƏ HƏYATIMIZDA TƏTBİQİNƏ İMKAN YARADILMALIDIR”

## BAHAR MURADOVA: “TƏHSİLDƏ İNKİŞAF ÜÇÜN TƏHSİL VERƏNLƏRİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ EHTİYAC VAR”





**“SON 15 ildə 3500-dən çox məktəb binası tikilib və əsaslı təmir edilib. Bu, Azərbaycanın bütün dövrlərdə inşa etdiyi məktəblərin 70 faizini təşkil edir”. Bunu baş nazirin müavini Əli Əhmədov Azərbaycan müəllimlərinin XV qurultayında çıxışı zamanı deyib. Ə.Əhmədov bildirib ki, dövlətin təhsilə qayğısı nəticəsində müəllimin həyat şəraiti, təhsilin məzmun və keyfiyyətinin yaxşılaşdırılması müşahidə edilir. “Azərbaycanda təhsil yeni səviyyəyə qalxıb. Təhsilin məzmununda keyfiyyət dəyişikliyi ilə əlaqədar islahatlar öz bəhrəsini verir”.**

Baş nazirin müavini təhsil sahəsində qarşıda duran vəzifələr barədə danışıb. O, bunun üçün qarşılıqlı fikir mübadiləsinin aparılmasına ehtiyac olduğunu deyib: “İlk növbədə təhsilin məhsuldar qüvvəyə çevrilməsi, yeni texnologiyaların yaranması və həyatımızda tətbiqinə imkan yaradılmalıdır.Təhsilin milli sərvətə çevrilməsi qarşımızda duran əsas vəzifələrdəndir. Bununla yanaşı təhsilin təqabət qabiliyyətinin artırılması da vacib şərtlərdəndir. Bu gün təhsilin, yeni texnologiyaların tətbiqinə sərmayə qoyan dövlətlər inkişaf edirlər”.

Ə.Əhmədov təhsil siyasətinin qarşıda duran prioritetlərdən olduğunu deyib: “Təcrübə göstərir ki, yuxarı ali təhsil alanlar digərlərinə nisbətən 3 dəfədən çox əməkhaqqı alırlar. Hər il əmək bazarına təhsili başa vuran 100 mindən çox yeni işçi qüvvəsi gəlir. Araşdırmalar göstərir ki, işlərini daha tez-tez itirənlər yüksək təhsil səviyyəsi olmayanlardır. Bu mənada təhsilin səviyyəsinin yüksəlməsinin məşğulluğun yüksəlməsi ilə birbaşa əlaqədar olduğunu deyə bilərik. Bu gün ölkəmizdə hər bir təhsil alan gənc öz imkanlarının 60 faizini reallaşdıra bilir, inkişaf etmiş ölkələrdə bu 75 faizdən yüksəkdir”.

Ə.Əhmədov təhsildə əldə olunan uğurlarla yanaşı neqativ halların müşahidə edildiyini vurğulayıb: “Təəssüf ki, təhsil sahəsində neqativ hallar var. Azərbaycan cəmiyyətini bunu görür və hiss edir. Təhsil Nazirliyi bu istiqamətində ciddi addımlar atır, lakin daha böyük səylərin göstərilməsinə ehtiyac var”. Milli Məclis sədrinin müavini Bahar Muradova isə bildirib ki, təhsildə inkişaf üçün təhsil verənlərin keyfiyyətinin yüksəldilməsinə ehtiyac var.Vitse-spiker qeyd edib ki, təhsildə inkişaf üçün təhsilverənlərlə yanaşı ailənin, cəmiyyətin bu işə cəlb edilməsi mütləqdir: “Övlad yetişdirən valideynlərin müasirləşməsi, hətta övladları ilə birlikdə təhsil almasına diqqət etməliyik”.

Milli Məclisdə təhsil, elm sahəsinin inkişafı və bu inkişafa təminat verən qanunların qəbuluna toxunan B.Muradova millət vəkillərinin bu məsələyə son dərəcə həssas yanaşdığını deyib: “Xüsusən, son çağırış parlamentdə peşə məktəbləri, orta ümumtəhsil məktəbləri, ali təhsil ilə bağlı qanunvericilik aktlarına bir sıra dəyişikliklər edilib. Bu, həm də millət vəkillərinin təhsil sahəsinə verdikləri önəmlə bağlıdır. Ötən gün parlamentdə 2019-cu ilin büdcə layihəsi müzakirə edildi. Millət vəkillərinin çıxışları bu sahəyə ayrılan maliyyə vəsaitinin artırılmasına səbəb olub. Xüsusən dövlət sifarişi ilə ali təhsil alanların xərcləri artırılıb. Çünki ola bilməz ki, özəl sahədə təhsil alanların sayı dövlət ali məktəblərində təhsil alanlardan çox olsun”.

B.Muradova təhsil müəssisələrinə ailələr tərəfindən maddi yardımların qanuniləşdirilməsini təklif edib: “Hər hansı imkanlı ailənin övladının təhsil xərclərinə maliyyə vəsaiti ayırmasında qəbahət yoxdur. Bunun qanunverici əsasını yaratmaq olar. İmkanlı ailələrin təhsil sahəsinin dəstəyinin olması təbii haldır. Hər bir imkanlı valideyn övladının təhsilinə vəsait ayırmaq istəyər”.

***Ruslan***

## Məleykə Abbaszadə: “Təəssüflər olsun ki...”

“**BİZ** işimizdəki bugünkü uğuru şəffaflıq sayəsində qazanmışıq”. Bu sözləri Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Azərbaycan müəllimlərinin XV qurultayında çıxışı zamanı deyib. O bildirib ki, DİM hazırda əhalinin bütün yaş qruplarını əhatə edən hər cür imtahanların keçirilməsini təşkil edir: “Bu ilin 10 ayı ərzində imtahanlarda 641517 iştirakçı olub. 48 mindən çox müəllim imtahanların keçirilməsində bizə kömək edib. Mərkəzləşdirilmiş imtahanlar təhsilin ümumi inkişafı ilə bağlı təsvir yaradır. İctimaiyyətdən çox olmasa da, müəyyən qədər şikayətlər alırıq. Cari ildə imtahanlar zamanı 2417 yazılı şikayət daxil olub ki, bu da ümumi iştirakçıların 0,3 faizini təşkil edir. Təəssüf ki, müəllimlər də bu neqativ halların yaradılmasında iştirak edir. Bütün bu məsələləri hüquqi müstəvidə həll edirik. Sosial şəbəkələr bizi diqqətli olmağa vadar edir”.

M.Abbaszadə qeyd edib ki, dərsliklərdə baş verən yeniliklər də imtahanlarda da öz əksini tapacaq. M. Abbaszadə onu da vurğulayıb ki, imtahanların ildə iki dəfə müxtəlif regionlarda aparılması çevik fəaliyyətin göstəricisidir. “Hər bir sahə üzrə qiymətləndirmə meyarı dəyişir. Müəllimlərin yüksək motivasiyası uşaqlarda öyrənmə istəyini artırır. Müəllim peşəsi gənclərin gələcəyini formalaşdırır”.

## Azyaşlılara qarşı zorakılıqda ittiham edilən şəxsə ağır cəza verildi

### AMİL PAŞAYEV: “15 İL AZADLIQDAN MƏHRUM EDİLİB”

**BAKI** Ağır Cinayətlər Məhkəməsində azyaşlılara qarşı seksual xarakterli zorakılıq hərəkətləri etməkdə təqsirləndirilən Amil Paşayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Trend-in məlumatına görə, hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə A.Paşayev 15 il azadlıqdan məhrum edilib.Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, araşdırma zamanı məlum olub ki, A. Paşayev bu ilin iyun ayı ərzində metronun “Əhmədli” stansiyasının yaxınlığında təsadüfən gördüyü qadınları izləyərək münasib bildiyi şəraitdə onların çantalarını açıq talama yolu ilə alaraq hadisə yerindən qaçıb. Saxlanılan şəxsin ələ keçirdiyi çantaların birində 120 manat pul olub.

İstintaqla müəyyən edilib ki, A.Paşayev 2017-ci ilin dekabr ayından saxlanılan günə qədər Xətai rayonu ərazisində 4 azyaşlı qıza qarşı seksual xarakterli zorakılıq hərəkətləri edib. Əsasən 10-15 yaş arasında olan qızları izləyən A.Paşayev binaların girişində mərtəbələr arasında yerləşən pilləkən sahələrində onlara hücum edərək seksual xarakterli hərəkətlər edib.

***Musa***

## Avtomobildən pirotexniki vasitələr aşkarlanıb

**QƏRB** Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "Mitsubishi Airtek" markalı nəqliyyat vasitəsi saxlanılıb və gömrük baxışı keçirilib. Dövlət Gömrük Komitəsindən Avtosfer.az-a verilən məlumata görə, baxışdan öncə, vətəndaş üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Daha sonra avtomobilə baxış keçirilib. Baxış zamanı nəqliyyat vasitəsinin yük yerində-ehtiyat təkər saxlanan hissədə və həmin hissənin sağ və sol ətrafında üzərində "Petarda Blyskowa" yazısı olan 5160 ədəd və üzərində "Corsar" yazısı olan 1500 ədəd pirotexniki vasitələr aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.